*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 70-74*

https://doi.org/10.62837/2025.8.70

**AYGÜN MƏMMƏDOVA**
Almammadova24@gmail.com
**Azərbaycan Rəssamlıq Akademiyasının**
**Xarici dillər kafedrasının elmlər**
**doktoru**

# TƏDRİS PROSESİNDƏ TƏLƏBƏLƏRİN DAXİLİ MOTİVASİYASININ FORMALAŞMASI VƏ İNKİŞAF ETDİRİLMƏSİ

## X Ü L A S Ə

**Açar sözlər:** *motivasiya, müəllim, tələbə, tələbə-müəllim münasibətləri*

Motivasiya həmişə insan həyatında mühüm rol oynamışdır. Məqalədə əsas məqsəd təlim-tərbiyə prosesində motivasiynın psixo pedoqoji əhəmiyyətini araşdırmaq, onun tələbələrdə necə formalaşdığını təhlil etmək və müəllimlərin bu sahədə tətbiq edə biləcəyi effektiv strategiyaları göstərməkdir. Məqalə həm nəzəri, həm də praktik yanaşmalarla motivasiyanın öyrənməyə təsirini izah edir. Məqalə analitik-nəzəri tədqiqat əsasında yazılmışdır. Motivasiya növləri, funksiyaları və tədris prosesində təsiri təhlil olunur. Müəllimin rolu təlim strategiyaları və motivasiyanı artıran psixoloji yanaşmalara əsaslanır. Motivasiya mövsümü həyatımızın hər sahəsini əhatə etdiyi kimi, təhsil sistemində də bu mövzuya geniş yer verilir. Tələbələrin nailiyyət qazanmasında motivasiyanın önəmli yeri vardır. Eyni dissiplin, müəllimlərin doğru seçilməsi də təhsil ocaqlarının uğurla fəaliyyət göstərməsinə təsir göstərir. Hətta dərslərin tədrisi zamanı istifadə olunan üsul və metodlar tələbələrin motivasiyasının yaranmasında, artmasında və davamlı olmasında böyük rol oynayır. Ümumiyyətlə məqalədə tədris prosesində motivasiyanın əhəmiyyətindən və tədris prosesində müəllim – tələbə münasibətlərinin rolundan bəhs olunur. Təhsildə bu keyfiyyətlərin artırılması ən ümdə şərtlərdən biri kimi qeyd olunur.

Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli amillərdən biridir və müəyyən fəaliyyətlə formalaşmaq üçün və həmin fəaliyyəti davam etdirmək üçün vacibdir. Motivasiya latın sözü olub “sövqetmə”, “oyatmaq” mənasını verir. Motivasiya təlim prosesində və tələbələrin idrak fəallığına təkan verən fərdin idrak prosesinə təsir edən, eyni zamanda tələbələrin fəaliyyətini müəyyənləşdirən və buna uyğun qərar qəbul etməyi təmin edən qüvvədir. Motivator kimi müəllimin rolu daha təsirli və vacibdir. Müəllim tələbələri düzgün motivə etməklə, onları həvəsləndirmədə və tələbələrin şəxsiyyət kimi formalaşmasında önəmli pol oynayırlar. Müəllmi həm motivator, həm də doğru yol göstərən varlıqdır. Dərin bilik, geniş dünyagörüşü tələbələr arasında elmin, biliyin, fənnin, tədris prosesinin

cəzbedici qüvvəsini aça bilmək üçün vacibdir. Tələbələr müəllimin simasında ağıllı, bilikli, düşüncəli, sənətinə vurğun bir insan görməlidirlər. Müəllimlik peşəsi çox çətin və ən məsuliyyətli bir peşədir. Hər adam onun öhdəsindən gələ bilməz. XXI əsr təhsilində tələbələrin aktiv və maraqlı olması vacib şərtdir (1 səh. 14-15). Motivasiyanın əsas növləri daxili və xarici motivasiyalardır. Daxili motivasiya – insanın bilik almaq, öyrənmək və inkişaf etmək üçün öz içindən gələn təbii marağı və ehtiyacıdır. Tələbə yeni bilikləri anlamaq üçün çalışır və öyrənmə prosesindən zövq alır. Xarici motivasiya – tələbənin nailiyyət qazanmaq, mükafat əldə etmək və ya cəza almamaq üçün çalışmasıdır. Buraya qiymət, təqdir, diplom kimi faktlar daxildir. Hər iki növ motivasiyanın tələbənin fəaliyyətində xüsusi rolu vardır. Ancaq davamlı və dayanıqlı öyrənmə üçün daxili motivasiya daha effektiv hesab olunur. Dil dərslərində hər bir müəllim tələbələri bu iki növ motivasiyadan dəyərlənməyə çağırır (2 səh. 28). Müəllim öz tədris etdiyi fənni mükəmməl bilsə də tələbələrinə fərdi yanaşa bilmir və tələbənin bilik – bacarıqlarını diqqətə almadan davranarsa, onlar arasında səmimi münasibət yarana bilməz, beləliklə tələbədə müəllimə qarşı inam azalır. Ona görə də müəllim – tələbə münasibəti düzgün qurulmalıdır. Uğura aparmaq üçün müəllimlər tələbədə özünəinam duyğusu formalaşdırmalı, tələbənin maraqları nöqteyi-nəzərindən çıxış etməli, öyrənməni tələbə üçün mənalı, dəyərli etməli, hər kəsin özünəuyğun hədəflər seçməsinə yardım etməli, auditoriyada öyrənmək zövqverici bir mühit hazırlamalı, gərəkli anlarda həvəsləndirici çalışmalar təşkil etməli, tələbənin özünə olan hörmətini, güvənc və qürur hissini gücləndirməlidir. Tələbə və müəllim münasibəti maraq, diqqət və inam üzərində qurulmalıdır. Yalnız bu zaman həqiqi ünsiyyət yaranacaq, tələbə öz mentorunu eşidəcək və onun istəklərini yerinə yetirə bləcək. İnam, sevgi və qarşılıqlı hörmət üzərinə qurulan bütün münasibətlər kimi müəllim – tələbə münasibətləri də gələcəyimizi yetişdirən, təyin edən varlıqdır. Müəllim eyni zamanda ən güclü motivatordur. Bəzi müəlimlər nəticəyə çox önəm verirlər.

Təhsil prosesində tələbənin uğur qazanmasında təkcə bilik və bacarıq kifayət etmir. Motivasiyalı tələbələr dərslərdə daha aktiv iştirak edir, qarşıya məqsədlər qoyur və bu məqsədlərə çatmaq üçün səylə çalışırlar. Motivasiyalı tələbələr yalnız bu gün üçün deyil, gələcək üçün də planlar qururlar. Dil dərslərində tələbələrdə motivasiya yaranır. Dilə daha dərindən yiyələnmək istəyirlər. Müasir dövrdə təhsilin beynəlmiləşməsi və qloballaşması prosesləri nəticəsində xarici dillərə olan maraq sürətlə artmaqdadır. Bu maraq təkcə şəxsi inkişaf deyil, həm də akademik uğurlar, peşəkar perspektivlər və mədəniyyətlərarası anlayış baxımından böyük əhəmiyyət daşıyır. Dünyanın bir-biri ilə daha sıx bağlı olduğu dövrdə insanlar daha çox ünsiyyət vasitəsi kimi xarici dillərə ehtiyac duyurlar. Bunların hamısı tələbələrdə motivasiyanı daha da gücləndirir. Burada həm daxili, həm də xarici motivasia əsas yer tutur. İnternet, media, sosial şəbəkələr və beynəlxalq xəbərlər əsasən, xarici dillərdə təqdim olunur (3 səh. 4-5). Xarici dilə motivasiyanın formalaşma faktorları daxili maraq və

özünü inkişaf etdirmə marağı kimi qeyd olunur. Şəxsi maraq tələbənin dilə qarşı yaranandan və ya həyat təcrübəsi əsaslanan maraq kimi göstərilir. Özünü inkişaf etdirmə istəyi – yeni biliklərə yiyələnmək həvəsi kimi qeyd olunur. Tələbələrdə bilik və bacarıqların formalaşması və inkişaf etdirilməsi üçün motivasiyanın hər iki növü əsas rol oynayır. Motivasiya tələbəni yalnız nəzəriyyə öyrənməyə deyil, eyni zamanda öyrəndiyini tətbiq etməyə, analiz etməyə və yeni ideyalar yaratmağa təşviq edir. Bu da onun yaradıcı potensialını ortaya çıxarır. Motivasiya tələbənin müəllim və qrup yoldaşları ilə münasibətlərinə də təsir edir. Müsbət motivasiyalı tələbələr daha əməkdaşlığa açıq olur, komanda işlərində fəal iştirak edir və liderlik bacarıqları inkişaf edir (4 səh. 24). Motivasiya tələbəyə öz təhsil prosesinə nəzarət etməyi öyrədir. Tələbə məqsəd qoyur, plan qurur, vaxtını düzgün bölür və nəticəyə çatmaq üçün davamlı çalışır. Bu xüsusiyyətlər gələcəkdə onu peşə həyatında da uğurlu olmasını təmin edir. Yüksək motivasiyalı tələbələr yalnız məlumatları əzbərləmir, onları dərk edir, şərh edir və yeni fikirlər irəli sürür. Bu tənqidi təfəkkür, araşdırma bacarığı problem həll etmə qabiliyyətinin formalaşmasına səbəb olur. Motivasiyalı tələbə öz gücünə inanır, uğurlarına sevinir və uğursuzluqlardan nəticə çıxarır. Motivasiya tələbələrdə öz gücünə inanma hissini gücləndirir. Tələbə özünün inkişafına inanaraq daha çox çalışır və qarşısına çıxan çətinliklərdən qorxmur. Bu da məsuliyyətli şəxsin formalaşmasına zəmin yaradır. Məqalədən belə nəticə çıxarmaq olar ki, motivasiya tələbənin yalnız bu günkü dərslərində deyil, ümumilikdə həyat yolunda da uğurlu olmasında əhəmiyyətli yer tutur. Təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdən biri də tələbələrdə davamlı daxili motivasiyanın formalaşmasına imkan yaradan tədris və tərbiyə mühiti yaratmaqdır.

Müasir dövrdə təhsil yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır. Tədris prosesinin əsas məqsədi tələbələrdə müəyyən bir sahəyə maraq, idrak fəallığı və müstəqil düşüncə bacarığı yaratmaqdır. Bu məqsədə nail olmağın ən vacib şərtlərindən biri də tələbələrdə daxili motivasiyanın formalaşmasıdır. Daxili motivasiya formalaşmış tələbə bilikləri yalnız qiymətüçün deyil, özünü inkişaf etdirmək və həyatda tətbiq etmək üçün öyrənir. Ümumiyytlə motivasiya psixologiyasında insan fəaliyyətinin daxili hərəkətverici qüvvəsi kimi qeyd olunur. Təhsil prosesində ən səmərəli nəticələr daxili motivasiya üstünlük təşkil etdikdə əldə edilir. Xarici motivasiya müvəqqəti nəticə versə də, uzunmüddətli öyrənmə və peşəkar inkişaf üçün yararlı sayılmır. Buna görə də müasir pedoqoji nəzəriyyə və praktika tələbələrin daxili motivasiyasının formalaşmasına xüsusi bir önəm verir. Saxili motivasiya – tələbələrin öyrənməyə olan şəxsi marağı, idrak zövqü özünüreallaşdırma ehtiyacı ilə bağlıdır. Bu motivasiya formalaşdıqda tələbə öyrənməni sosial sifariş və ya formal öhdəlik kimi deyil, şəxsi inkişafın vacib elementi kimi qəbul edir. Tələbələrin daxili motivasiyasının formalarına təsir edən - müəllimin tədris etdiyi fənnin onlara aşılamasından asılıdır. Müəllimin dərs aparma tərzi, ünsiyyət mədəniyyəti, tələbələrə münasibəti və ədalətli qiymətləndirilməsi

daxili motivasiyanın yaranmasında əsas rol oynayır. Müəllim yalnız bilik ötürən deyil, həm də motivasiyaedici lider funksiyasını yerinə yetirəndir. Fənnin gündəlik həyatda peşə fəaliyyəti ilə əlaqələndirilməsi tələbələrdə öyrənməyə təhsilə böyük maraq yaradır. Praktik nümunələr və real problemlərin həllinə yönəlmiş tapşırıqları motivasiyanı gücləndiri. Bu məqsədlə interaktiv metodlardan - problemi əsaslı öyrənmə, layiqli işi, qrup müzakirələri, debal və rol oyunlarından istifadə səmərəli nəticə verir. Tələbələrin maraqları, məqsədləri, özünüqiymətləndirilməni və yüksək nəticə qazanmağa onlarda daxili motivasiyanı inkişaf etdirir. Təhsil prosesində tələbələrin daxili motivasiyasının formalaşması müasir təhsil sisteminin proritet istiqamətindən biridir. Bu motivasiya formalaşdıqda tələbələr öyrənməni şəxşi inkişaf, intellektual zövq kimi qəbul edir. Qeyd etmək lazımdır ki, müasir pedaqogika və psixologiyada motivasiya xüsusi yer tutur. Beləliklə, daxili motivasiya insanın öyrənmə prosesinin özündən məmnunluq alması, bilik və bacarıqları şəxsi inkişaf vasitəsi kimi qəbul etməsi ilə bağlıdır.

**Aygun Mammadova**

**S U M M A R Y**

**MECHANISMS FOR THE FORMATION AND DEVELOPMENT STUDENTS` ESSENTIAL MOTIVATION IN THE EDUCATIONAL PROCESS**

**Key words:** *motivation, teacher, teacher student in teaching process/*

The role of motivation in human has life always been great motivation is one of the two most important keys to success and even guiding human live. The other important key is to set a goal after setting a goal, motivation becomes the force that helps a person move toward that goal motivation covers the educational system as well as every aspect of our life. The teacher directs the student the goal with the right approach. This, beside student contributes to the success of the teacher and even the university. At the same time discipline and the right choice of teachers a dived impact on the success of educational instruction. This article explores the psycho pedagogical significance of motivation in the teaching learning process and strategies for fostering it among students. The role of the teacher instructional methods, and psychological theories enhancing student motivation are discussed. The article concludes that motivation is a key factor in improving education al quality and increasing students engagement in earning. This article discusses the importance of motivation in the teaching process and the role teacher and teacher student relations in the teaching process.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 8, 2025*
*Səh. 70-74*

**Айгюн Мамедова**

**Р Е З Ю М Е**

**МЕХАНИЗМЫ ФОРМИРОВАНИЯ И РАЗВИТИЯ ВНУТРЕННЫХ МОТОВАЦИИ СТУДЕНТОВ В УЧЕБНОМ ПРОЦЕССЕ**

**Ключевые слова:** *мотивация, учитель, студент, отношения учитель – студент.*

Рол мотивации в жизни человека всегда была велика. Мотивация – один из двух важнейших ключей к успеху. Мотивация играет важную роль в успехе студента. В статье рассматривается психолога – педагогическое значение мотивации в учебном – образовательном процессе. Анализируются виды мотивации ее функции и влияние на учебную деятельность. Особые внимание уделяется роли преподавателя и повышению мотивации. Это вместе со студентом способствует успеху учителя. Методы и прием, используемые при проведении уроков, играют важную роль и формирования устойчивости мотивации учащихся. Хотя по этой было проведено много исследований, необходимо изучить эту тему боле глубоко. В данной статье обсуждается важность, мотивации в учебном процессе и роль взаимных отношений между учителем и студентом в учебном процессе. В заключение подчеркивается, что мотивация является ключевым фактором повышения качества образования и активизации учебной деятельности студентов.

## Ə D Ə B İ Y Y A T

1.Quliyev M. Təlimin motivasiyası və onun idarə olunması. “Elm və Təhsil” Bakı 2029;
2. Məmmədova S. Motivasiya və öyrənmə. Bakı ADPU nəşriyyatı, Bakı 2020;
3. Ильим Е.П. Мотивация и мотив. Санкт Петербург 2010;
4. Schunk D.H. Pintrich Meere motivation in education: theory and application Reanson 2014.

**Rəyçi: Z.Ş.Məmmədova**